# LƏNKƏRAN-ASTARA BÖLGƏSİNİN İQTİSADİ İNKİŞAFI AVROPA İTTİFAQININ MARAĞINDADIR

**Cəmil Quliyev**

*AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi*
*qcamil@mail.ru*

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən sonra respublikada yaradılan sağlam və işgüzar şərait nəticəsində Lənkəran özünün yeni inkişaf dövrünə qədəm qoymuş, iqtisadiyyatın bütün sahələrində böyük nailiyyətlər əldə olunmuşdur. Ötən əsrin 70-ci illərində respublikada iqtisadi tərəqqinin təməlinin qoyulması Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə başlamasının ilk tarixi illəri kimi səciyyələnir. Təbii iqlim şəraiti və zəngin sərvətləri, əlverişli mövqeyi, güclü əmək ehtiyatları ilə tanınan, respublikanın nadir bölgələrindən olan Lənkəran uzun illər özünün güclü potensialından istifadə etməklə ölkənin iqtisadi həyatında mühüm rol oynayır. 1539 kvadrat kilometr ərazisi, 230 min nəfərə qədər əhalisi olan bu diyarın qərblə şərqi birləşdirən əsas ticarət yolunda birləşməsi, dənizə çıxışı onun inkişafını xeyli sürətləndirmişdir. Həmin illərdə iqtisadiyyatın inkişafına rayonun əsas sahəsi olan kənd təsərrüfatının dirçəldilməsindən başlanmışdır. Əsası 1969-cu ildə qoyulan yüksəliş 1980-ci illərin sonuna qədər davam etmiş, əhalinin güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Ermənistanın hərbi təcavüzü, səriştəsiz rəhbərlik, respublikada ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi Lənkəranda da iqtisadiyyatın tənəzzülünə səbəb olmuş, bütün sahələrdə işin ahəngi pozulmuş, sənaye müəssisələrinin çoxu fəaliyyətini dayandırmış, işləyən müəssisələrin əksəriyyətində istehsal gücündən cüzi istifadə edilmişdir.

İqtisadi tənəzzül 1992-1993-cü illərdə daha da dərinləşmişdir. 1993-cü ildən başlayaraq iqtisadiyyatın ayrı-ayrı sahələrində dinamik inkişaf meylləri tədricən artmağa başlamışdır. Sənayenin bazar münasibətləri əsasında yenidən qurulması iş ahənginin bərpasına əlverişli şərait yaratmışdır. Müəssisələrin özəlləşdirilmə-si və səhmdar cəmiyyətlərə çevrilməsi istehsalçı-istehlakçı münasibətlərinə yeni məzmun vermiş və onların arasındakı inamı artırmışdır. 1996-cı ildən başlayaraq 2024-cü ilə qədər istehsalda artım müşahidə olunmuş, sənaye məhsulu nəzərəçarpacaq dərəcədə artmışdır.

Zəngin flora, faunası və təbii sərvətləri ilə seçilən Lənkəranda kurort və turizmin inkişafı üçün geniş imkanlar vardır. Xəzər dənizi və onun sahillərində müalicə əhəmiyyətli qara qum, termal müalicə suları, sərin bulaqları, relikt və endemik bitki örtüyü ilə zəngin olan Talış meşələri, Qızılağac və Hirkan qoruqları, Xanbulançay su dəryaçası, Olimpiya İdman Kompleksi kurort və turizm şəbəkəsinin yaradılması iqtisadi cəhətdən mühüm rol oynayır. Turizmin inkişafı nəticəsində yaranan infrastruktur və xidmət sahələri məşğulluq probleminin həllinə kömək edir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I hakimiyyəti illərində şəxsən özünün rəhbərliyi ilə respublikada bütün sahələr, o cümlədən kənd təsərrüfatı sürətlə inkişaf edərək İttifaq miqyasında öncül sıraya çıxmışdır. Respublikamızın ayrı-ayrı regionlarının topaq və iqlim şəraitində iqtisadi potensialı nəzərə alınaraq, hər regiona uyğun kənd təsərrüfatı sahələrinin inkişafına diqqət yetirilmişdir. O dövrdə Lənkəran zonası ümumittifaq tərəvəz bostanı kimi tanınırdı, respublikanın əsas çayçılıq bazası sayılırdı. Bu regionda yetişdirilən sitrus və subtropik meyvələr respublika əhalisinin bu növ məhsullarla əsas təminat bazası idi.

Lənkəran-Astara regionu respublikanın digər regionlarından özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Burada subtropik iqlimin, münbit torpaqların, bolluca suyun, aran və dağ zonasının olması kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açır. Lənkəran-Astara regionuna daxil olan Astara rayonu da sosial-iqtisadi baxımdan əlverişli imkanlara malikdir. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq iqtisadi tənəzzül kənd təsərrüfatı sahəsindən də yan keçməmiş, bunun acı nəticələri respublikanın rayonlarında, o cümlədən Astara rayonunda da öz təsirini göstərmişdir. Astara rayonu eramızdan əvvəl III minillikdə baş vermiş buzlaşma dövrünə məruz qalmadığından, burada relikt ağacların (şabalıdyarpaq palıd, azat, dəmirağacı) inkişafı və bununla sonrakı əsrlərdə daha əsrarəngiz floranın təşəkkülü baş vermişdir. Hazırda rayonun 64 faizini, yəni 39 min hektarını meşələr təşkil edir. Rayon ərazisində suyu müalicə əhəmiyyətli olan bulaqlar çoxdur.

Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin benefisiarı olduğu "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" texniki yardım layihəsinin məqsədi regional ərazi inkişaf planlaşdırma sisteminin təkmilləşdirilməsi, meyvə və tərəvəz sektorunda müasir yerli iqtisadi və icma əməkdaşlıq mərkəzi şəbəkəsinin yaradılması, eləcə də sahibkarlıq və investisiya şərtlərinin yaxşılaşdırılması vasitəsilə Lənkəran-Astara iqtisadi rayonunda meyvə və tərəvəz sektorunun rəqabət qabiliyyətinin və əlavə dəyərinin artırılmasıdır. Layihənin icra müddəti 38 aydır.

Düşünürəm ki, layihəyə ayrılan vəsaitlə regionda sosial problemlərin qismən həll edilməsi mümkündür. Görüləcək işlər insanların gəlirlərinin artmasına və yeni iş yerlərinin açılmasına səbəb olacaqdır.